# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, ZATİ-ALİLƏRİ İLHAM ƏLİYEV CƏNABLARINA

Möhtərəm cənab Prezident!

Yaranmış pandemiya gərginliyinin dünyanı sardığı bir zamanda, ölkəmizdə hər an iqtisadi böhran yaranacağına böyük ehtimalın olamsına baxmayaraq, respublikamızda inkişaf dinamikasının qorunub saxlanması ilə yanaşı, əhalinin güzaranının öz məhvərindən çıxmaması üçün əlinizdən gələni edirsiniz. Bu, təkcə liderlik bacarığınızın gerçəkliyini ifadə etmir, eyni zamanda müasir dünyanın bütün gedişatlarını mükəmməl dərk edən və incələyə bilən böyük siyasətçilərə mənsub olan Öndərlik fenomeninizin həqiqətlərini monumental şəkildə təcəssüm etdirir. Siz bir insan kimi bütün cəhətlərdən doğal və təbii, xeyirxah və alicənab, mülayim və humanist xüsusiyyətlərə malik olduğunuzu hər addımınızda büruzə verirsiniz. Xalqımıza göstərdiyiniz müxtəlif cür yardımların, həyat eşqini yüksəldən mənəvi dəstəyinizin həddi-hüdudu görünmür. Bu həqiqət, ölkəmizdə cərəyan edən proseslərin ahəngində, imzaladığınız fərman və sərəncamlarda özünü bariz şəkildə göstərir. Yenicə imzaladığınız, incəsənət xadimlərinə ərməğan olunan Prezidеn mükafatlarinin verilməsinə dair sərəncamınız da insanlıq ənənənizə sədaqətinizi bir daha isbata yetirən, Sizin qayğıkeş liderlik missiyanızın parlaq nümunəsidir. Mükafata layiq bildiyiniz sənətkarlar sırasında İrəvan Teatrının kollektivini də diqqətinizdə saxladığınız üçün, həmin sənətkarlar arasında mənə də yer ayırdığınıza, bu sevinc hisslərindən mənim doğmalarıma da bəxş etdiyinizə görə, Zati-Alinizə dərin minnətdarlıq hisslərimi ifadə edir, Sizi əmin etmək istəyirəm ki, hər zaman olduğu kimi, bundan sonra da peşəmizə vicdani münasibətimizlə, dövlətimizə və dövlətçiliyimizə sarsılmaz sədaqətimizlə, sinəmizi sipər edəcək dərəcədə, xalqımızın əvəzsiz Lideri olaraaq, Sizin ətrafınızda mohkəm sədd yaradacaq, əlimizdən gələni əsirgəməyəcəyik!

Tanrı xalqımızla birgə, Sizi qorusun!

Hörmət və ehtiramla,
İftixar Piriyev

Ədalət.- 2020.- 9 may. S. 5.